Salam, mənim əziz dostum, mənim adım Dianadır, sənə qonşu Ermənistandan yazıram. Mənim 20 yaşım var, dilçilik univesitetində oxuyuram və inglis dili mütəxəsisi olmaq istəyirəm. Hər kəs  kimi mənim beynim də çoxlu fikirlərlə, arzularla və məqsədlərlə doludur. Amma mənim başqa çox önəmli bir arzum da var, bu – sülhdür. Hər kəs onu fərqli təsəvvür edir, hər biri üçün sülhün fərqli dəyəri vardır. Amma yaşdan, cinsdən, milli mənsubiyyətdən asıllı olmayaraq bir şey dəyişməzdir. Hər insan sülh şəraitində yaşamaq istəyir. Mənə görə sülh mənim və sənin dostluğu, ölkələrimizin həmirəyliyidir. Həm mən həm də sən məktəbdə ölkələrimizin tarixini keçmişik, ikimiz də yaxşı bilirik ki, düşmənçilikdən və müharibədən başqa bizim həm də sevgi və qardaşlıq hissləri ilə dolu illərimiz olmuşdur.

Düzdür, biz tarix daşıyıcılarıyıq, milliyyətimizi, həyat tərzimizi tarix formalaşdırıb və formalaşdıracaq. Mən, sən ya da başqa biri ağrılı hadisələri siliə ya da unuda bilmərik. Həmin hadiələr ki, bizə heç nə verməyib, əksinə insan ölümlərinə səbəb olmuşdur.Torpaq uğrunda mübarizədə, ərazilər ələ keçirməkdə ya da itirməkdə yəni bütü bunlarda qalibiyyətlər ya da məğlubiyyətlər görməkdən başqa bir mühim məsələ də var bu, insan həyatıdır, onlar məqsədlərlə dolu ola-ola, yaşamağı ardu edə-edə qəfildən məhv olub bizi birdəfəlik tərk edirlər. İndi mübarizə aparmaq üçün mənim və sənin yəni bizim nəsilimizin növbəsidir. Mən istəyirəm ki, biz dövlətlərimizin keçmiş xətalarını təkrarlamayaq və nikbin olaq.

Şübhəsiz məsələni əks tərəfdən həll etmək asan deyil. Amma bizim nəslimiz texnologia əsrində yaşayır, hər şey dəyişir və informasya çox tez yayılır, məncə mümkün və önəmlidir ki, məsələni danışıqlar yolu ilə həll edək. Mən istəyirəm ki, mənim və sənin hamımızın məqsədləri və sülh içində yaşamaq istəyimiz ölkələrimiz və hökümətlərimizin dostluq münasibətləri qurmaq üçün əsas olsunlar. Ölkələrimizin iqtisadiyyatı, təhsil sistemi, mədəniyyatı və digər sahələri var, bunlar hər bir dövlətin inkişaf olunması üçün vacibdir, amma ordu gərgin vəziyyətdə olduqda bu sahələr zədələnir. Silah-sursata xərclənən vəsaitlər iqtisadiyyatın inkişafına xərclənə bilər. Qarabağ ölkələrimizi bağlayan halqa ola bilər. Bunun vasitəsiylə biz ticarəti, turizmi inkişaf etdirərəik və iki ölkənin resursları öz məqsədlərinə sərf olunar. Biz qonşu ölkələrik, bir-birimizdən asıllı olmayan vəziyyətdə yaşaya bilmərik, amma bir-birimizə dayanaraq irəliləyib ölkələrimizi inkişaf etdirə bilərik. Güclü və firavan dövlətə sahib olmaq üçün yaxşı müttəfiqin var olması ən yaxşı təməldir. Bu an çatıb və biz addım-addım bir-birimiz üçün yaxşı müttəfiqə çevrilə bilərik. Mübarizə aparmaq üçün növbə bizimdir,  gəl sülhü və həmriləyliyi əsas götürərək bunu edək.

Sevgiylə Diana
Səbrsizliklə məktubunu gözləyirəm.